# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

## “Naxçıvan Gənclik Mərkəzi”nin Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyinə verilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı”nı rəhbər tutaraq, “Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu” publik hüquqi şəxsin ləğv edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 21 fevral tarixli 435-06/S nömrəli Sərəncamının 2.3-cü bəndinə əsasən, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin müraciətini, Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin və İqtisadiyyat Nazirliyinin rəylərini nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Ləğv edilmiş “Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu” publik hüquqi şəxsin tabeliyində olan “Naxçıvan Gənclik Mərkəzi” əmlakı ilə birlikdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyinə verilsin.

2. “Naxçıvan Gənclik Mərkəzi”nin fəaliyyətinin təşkilinə dair Qaydalar”ın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 1 iyul tarixli 144 nömrəli Qərarı ləğv edilsin.

3. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə “Naxçıvan Gənclik Mərkəzi”nin istifadəsində olan dövlət əmlakının təhvil-təslimini həyata keçirsin.

4. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

5. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “ 26 ” fevral 2024-cü il
№ 18